UOT 654.197

*Fəxriyyə İsayeva*
*Bakı Xoreoqrafiya Akademiyasının doktorantı*
*AZ 1014, Bakı, Rəşid Behbudov 75*
*E-mail:*faxriyyaisayeva@gmail.com

# TELEVİZİYA İNCƏSƏNƏT PROQRAMLARI MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR SİSTEMİNƏ YENİ BAXIŞ KONTEKSTİNDƏ

**Xülasə**: Təqdim olunan məqalə, Azərbaycan televiziya məkanında yayımlanan incəsənət haqqında verilişlərin mahiyyətindən bəhs edilir. Burada müəllif tarixi ənənələr və müasir televiziya modeli proseslərinə önəm verir. Bu tədqiqat qəlibi əsasında milli-mənəvi dəyərləri göz önünə alaraq bir çox qüsurlar aşkarlanaraq elmi cəhətdən incələnir. Tədqiqatçı incəsənət təmayüllü proqramları bir neçə tipoloji xüsusiyyətlərinə görə sistemləşdirmiş olur. Belə ki, tematik analiz üslubundan yararlanmış olur.
**Açar sözlər:** televiziya, incəsənət, milli-mənəvi dəyərlər, format.

Bu mövzuya başlamazdan əvvəl ilk növbədə "incəsənət" anlayışının elmi-fəlsəfi və ictimai mahiyyətinə toxunmaq istərdik. Çünki gündəlik mənəvi həyatımızda çox geniş yer tutan incəsənət nə qədər aydın görünsə də, onun elmi-fəlsəfi mahiyyəti bir o qədər dərindir və özünə ciddi elmi yanaşma tələb edir. Beləliklə, "incəsənət – bütövlükdə bədii yaradıcılığı - ədəbiyyat, memarlıq, heykəltəraşlıq, rəssamlıq və s. kimi sənət sahəsini əhatə edir. Bunlarla yanaşı, incəsənət – musiqi, rəqs, teatr, kino və s. kimi insan yaradıcılığını bədii – obrazlı formada ifadə edən və birləşdirən bir anlayışdır" [7, c. 507]. İncəsənət bütövlükdə bəşəriyyətin və xüsusi olaraq yaradıcı insanın gerçək həyatı müxtəlif sənət növlərində ifadəsi kimi də izah edilir. "Geniş mənada incəsənət insanın müxtəlif sahələrdə böyük bacarıq və məharətini ifadə etməklə bu yaradıcılığın gözəlliyini və estetik dəyərini özündə ehtiva edir" [9, c. 227].Deməli incəsənət ayrılıqda hər bir insanın, bütövlükdə cəmiyyətin estetik tərbiyəsinə və bununla da onun kamilləşməsinə, bir az da konkret desək, estetik ideallarının formalaşmasına xidmət edir. Xüsusi qeyd etməliyik ki, insan və bütövlükdə cəmiyyət nə qədər estetik dəyərlərə, estetik ideallara sahib olsa, millətvə milli dövlət o qədər güclü və mənəvi cəhətdən sağlam olar. Ona görə də bu dəyərləri insana və bütövlükdə cəmiyyətə təlqin etmək üçün keçmişdən üzü bəri, yəni tarixdən bu günə çox müxtəlif yollar, vasitələr formalaşmışdır. Dünyanın informasiya texnologiyalarına sahib olmadığı zamanlarda insanın və cəmiyyətin sağlam ruhda formalaşması üçün şifahi ədəbiyyatın, bir az keçəndən sonra yazılı ədəbiyyatın
– laylaların, dastan və nağılların, poeziyanın, nəsrin böyük imkanlarından istifadə edilmişdir.

Xalq, millət bu günkü sivilizasiyaya qədər hansı dəyərlərə inam bəsləmiş və incəsənətin geniş spektrli sahəsinin hansı nümunələrinə maraq göstərmişdir? Elmi araşdırmalar sübut edir ki, "ancaq milli ruha söykənən, min illərin dərinliyindən güc alan sənət davamlı olur. Mənbəyi bizə yad olan hər hansı şey isə gec-tez tükənəcəkdir... Böyük ideallların gerçəkləşməsi üçün tükənməyən nur mənbəyi lazımdır" [4, s. 18]. Bu "nur mənbəyi" isə, sözün həm müstəqim mənasında, həm də məcazi mənasında incəsənətlə bağlıdır. O incəsənət ki, yuxarıda deyildiyi kimi, özündə sənətin az qala bütün aspektlərini əks etdirir.

Milli mədəniyyətin bütün atributlarını ehtiva edən incəsənət heykəltəraşlıq, rəssamlıq, bədii ədəbiyyat, kino filmlər, teatr tamaşaları və s. kimi neçə-neçə sahənin yaratdığı idealları ortaya qoyur və bizi tərbiyə edir. Ona görə də incəsənt bir çox istiqamətlərdə öz inkişafı ilə ayrı-ayrı sənət adamlarının

yaradıcılıq dünyasının faktıdırsa, digər tərəfdən demokratik dövlətlərin bu inkişafa rəsmi dövlət qayğısı ilə də çox bağlıdır.

Dünyanın yeni inkişafı və bu inkişafın daha çox hiss olunduğu informasiya texnologiyaları incəsənəti insana daha çox yaxınlaşdırdı. Bu texnologiyalar sırasında müasir televiziya misilsiz rol oynamaqdadır. Bizim indiki mövzu kontekstimizə uyğun olaraq deməliyik ki, "televiziya verilişləri insanların psixikasına, mənəviyyatına bütün formalarından və imkanlarından istifadə edir" [5, s. 240]. Dünyanın yeni çağında "televiziya əvvəlki illərdən fərqli olaraq, incəsənətlə bağlı proqramlarında daha çox müasirliyə diqqət etməkdədir" [6, s. 117]. Bu fikir müasir Rusiya televiziya nəzəriyyəçisinə məxsusdur, lakin eyni fikri müasir Azərbaycan teleməkanı üçün də demək mümkündür.

Əslində "Azərbaycan televiziyası xalqa əsl xidmət yolunu Azərbaycan müstəqilliyə qovuşduqdan sonra tuta bildi. Məhz bu dövrdən televizyanın taleyinə xalqın, vətənin fərəhli və ağrılı günlərini, aylarını onlarla birgə yaşamaq, ən qaynar hadisələrin mərkəzində olmaq qisməti yazıldı" [2, s. 106]. Xüsusilə Ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan televiziyası mövzu, tematika, proqram zənginliyi ilə əvvəlki dövrdən kəskin şəkildə fərqlənməyə başladı. Televiziyanın təsir gücünü çox yaxşı bilən Heydər Əliyev onun ideoloji istiqamətindən tutmuş proqram siyasətinədək hər bir sahəsinə qiymət verməyi üstün sayırdı. Azərbaycan milli televiziyasının 40 illiyi münasibəti ilə təntənəli yubiley gecəsində çıxış edən Prezident Heydər Əliyev bu televiziyanı belə qiymətləndirmişdir: "Azərbaycan milli televiziyası 40 il ərzində böyük yaradıcılıq yolu keçmişdir və xalqımızın, respublikamızın həyatında əvəzsiz rol oynamışdır... Televiziya bütün informasiya orqanlarından ən kütləvisidir. İndi heç kəs öz həyatını televiziyasız təsəvvür edə bilməz" [3, s. 499-500]. Prezident sözünə davam edərək televiziyanın mənəvi tərbiyədəki rolu ətrafında fikir söyləmişdir: "... Teatrı biz vaxtı ilə çox yüksək qiymətləndirirdik və bu gün də yüksək qiymətləndiririk. Çünki insanların estetik tərbiyəsində, onların mədəni səviyyəsinin artırılmasında, insanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə böyük rol oynamışdır. Sonra teatrla bərabər kino bu rolu oynamağa başladı. Dünyada televiziya meydana gələndən sonra televiziya bu iki çox mühüm sahənin fəaliyyətini, ola bilər, bir qədər məhdudlaşdırsa da, eyni zamanda onların əldə etdiyi nailiyyətləri geniş kütlələrə çatdırmaq üçün ən gözəl, ən gərəkli bir vasitə oldu" [3, s. 500]. Prezidentin bu fikirlərində televiziya estetik tərbiyə vasitəsi kimi də səciyyələndirilir. Deməli, incəsənətin vacib sahələrini əks etdirən kino, teatr tamaşaları da televiziyanın proqram siyasətinin tərkib hissələridir.

Azərbaycan televiziya məkanının genişlənməsindən əvvəl yeganə telekanal olan milli televiziya incəsənətin teatr, kino kimi çox popular növlərinə müstəqillik illərinin lap əvvəllərində xüsusi diqqət ayırmışdır. Hələ 1993-cü ildə televiziyada özünü göstərən "Sabah" Yaradıcılıq Birliyi çoxsaylı teatr tamaşalarının meydana gəlməsinə şərait yaratmışdır. Sırf tamaşa yaradıcılığı ilə məşğul olan bu birlik 1996-cı ilədək 20-yə yaxın əsərə ekran həyatı vermişdir" [2, s. 112]. Deməli, bundan əvvəl televiziyadaha çox teatr tamaşalarını lent yazıları ilə təqdim edirdisə, indi onun özü birbaşa televiziya tamaşaları hazırlayıb cəmiyyətə təqdim edirdi. "Cəlil Məmmədquluzadənin məşhur "Kamança" əsəri (1993) ilə ilk uğurlu addımını atan "Sabah" Yaradıcılıq Birliyi sonralar auditoriyaya "Ac həriflər" (1993), "Anamın kitabı", "Yurd yeri", "6 №-li palata"(1994), "Məhbus", "Şəkilçi", "Bala, başa bəla", "Kral ölür", "Gecə", "Qayalarda qalan səs" (1995), "Yarımştat", "Kleopatra"(1996) kimi parlaq tamaşalar təqdim etmişdir" [2, s. 112].

Azərbaycan televiziyası özünün proqram siyasətində tamaşaçının estetik zövqünün formalaşması prosesini həmişə diqqətdə saxlamışdır. Həm də bu işdə milli-mənəvi dəyərlərin təbliğinə xidmət göstərmişdir. "AzTV özünün böyük yaradıcı imkanlarından və ənənəsindən istifadə edərək teatr tamaşalarının ekranlaşdırılması işini böyük sürətlə davam etdirməsi, hər həftənin şənbə günü səhər efirində müxtəlif teatrların tamaşalarına yer verməsi ilə mədəni-maarif funksiyasının icrası və incəsənətin teatr kimi vacib bir sahəsinin təbliği baxımından kifayət qədər əhəmiyyətli və vacib bir iş görmüş olur"[1, s. 283-284].

Azərbaycan televiziya məkanında – istər dövlət və ictimai TV, istərsə də özəl kanallarda televiziya filimlərinin xüsusi çəkisi var. Azərbaycan televiziyasında yaranışından az sonra - 1960-cı ilərdən başlayaraq "Bu, Səttar Bəhlulzadədir" (müəllif - Anar, rejissor- R.Axundov), "Bizim qadınlar" (müəllif-M.Mikayılzadə, rejissor- N.Yüzbaşov), "Üzeyir Hacıbəyov (müəllif və rejissor- K.Kərimov), "Şəhərin ritmləri" (müəllif və rejisor- R.İsmayılov), "Bakı və Bakılılar" (müəllif- C.Əlibəyov, rejissor- N.Abbasov) və s. kimi bu gün də maraqla seyr edilən telefilmlər ortaya qoydu.

Tədqiqatçı Elçin Əlibəylinin qeyd etdiyi kimi, o zaman televiziya bədii filmi də bir vacib incəsənət formatı kimi geniş vüsət tapdı və bu janrda "Aygün", "İnsan və zəncir", "Yun Şal", "Poçt qutusu", "Quzu", "Bizi dağlarda arayın" və s. filmlər çəkildi. Həm də, adlarından da göründüyü kimi, bu

televiziya tamaşaları və televiziya filmləri mütləq şəkildə birbaşa milli ədəbiyyatımızla, milli-mənəvi dəyərlərimizlə bağlı olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan televiziyasının incəsənət proqramlarına münasibətlə bağlı tarixən yaratdığı məktəb müstəqillik dövründə ortaya çıxan telekanallarımız üçün istinad nöqtəsi oldu. Xüsusilə reklam bazarına ünvanlanan kommersiya kanalları bu məktəbə pənah gətirdilər və bir azda inkişaf etdirərək özlərinin proqram siyasətində incəsənətin bütün janrlar sisteminə diqqət ayırdılar. "İnformasiya, analitik təhlillərlə bərabər, televiziya sənədli-bədii proqramlarla incəsənətə diqqət ayırır, bununla da daha çox tamaşaçı qazanırlar" [8, c. 171]. Peşakarlığın mühüm göstəricilərindən olan janra çevik və yaradıcı münasibət televiziyaların nüfüzunu xeyli artırmaqdadır. Bu mənada sənədli telefilmlər, musiqi proqramları, kino təhlillərinə dair verilişləri qeyd etmək olar. Hətta, bu sahədə ayrıca olaraq, müəllif proqramları kimi maraqlı bir teleproqram formatı meydana çıxdı. Bu gün, demək olar ki, bütün telekanallarda incəsənətin çox müxtəlif sahələrini efirə daşıyan maraqlı müəllif proqramları mövcuddur. Doğrudur, bəzən bu proqramların aparıcıları naşı aktyorlar, müğənnilər, yaxud, televiziyanın yaradıcılıq kanonlarını bilməyən adamlar da idarə edirlər. Amma bununla belə, müəllif proqramları sistemində tamaşaçının estetik zövqünü formalaşdıran incəsənət proqramları da az deyil. Bununla bağlı musiqi proqramlarını xüsusi qeyd etmək olar.

AzTV-də efirə çıxan "Tam fərqli" incəsənət proqramı son vaxtların ən peşakar verilişlərindən sayıla bilər. Proqramın aparıcısı əsasən, ictimai rəydə qiyməti olan və cəmiyyətin tanıdığı sənətkarları efirə çıxarıb onların yaradıcılıq dünyasını açmağa nail olur. Belə proqramların birində (2017-ci il avqustun 28-də) Bəhram Bağırov qonaq qismində idi. Aparıcı, gənc aktyor Murad Məmmədov çox maraqlı, aktyorun daxili yaradıcılıq aləmini aça bilən sualları Bəhram Bağırovu bir daha sevdirdi. B. Bağırovun erudisiyası, yaradıcılıq istedadının dünən və bu gün ortaya qoyduğu sənətkarlıq faktları kütləviteletamaşaçı üçün yeni və maraqlı idi.

AzTV-nin "Şəxsən siz" adlı yeni bir incəsənət proqramı da çox maraqla qarşılanır. Bu proqram tamamilə yeni bir formatdadır: proqramın aparıcısı yoxdur, onun təşkilatçıları- ssenarist və rejissoru proqrama dəvət olunan qonağın yaradıcılıq dünyasını təqdim etmək üçün ayrı-ayrı bölmələrdə onun monoloqlarını təqdim edirlər. Bu monoloqlar tamamilə dinamik olub, proqramın əsas qayəsinin açılmasına, incəsənət aləmindən gəlmiş bir sənət adamının idiallarının ifadəsinə xidmət edir. Tamaşaçı indiyə qədər bu proqramda Amalya Pənahova, Nurəddin Muradxanlı kimi aktyorların, yazıçı- dramaturq Əli Əmirlinin və digərlərinin yaradıcılıq aləminə teleséyahət etmişdir.

Teleməkanın "Lider", "Space", "Mədəniyyət", ATV, "Xəzər" kimi kanallarında xeyli sayda incəsənət proqramları efirə çıxır. "Lider" TV-də 2017-ci il sentyabrın 1-də efirə çıxmış "Arxitek" incəsənət proqramı Azərbaycan xalqının milli mədəniyyətini dünyaya nümayiş etdirən xalçaçılıq sənəti barədə maraqlı süjetlərlə dolğun məlumatlar verdi. Telekanal bu proqramda millətimizin xalçaçılıq sənətinə dünya marağını əks etdirən faktlar, Azərbaycana gələn turistlərin, rəsmi qonaqların xalçaçılıq sənətimiz barədə ağız dolusu sinxronlarını təqdim etməklə vətəndaşda öz xalqının sənət nümunəsinə fəxr hissi yaratmaqdadır.

"Space" telekanalındakı "Yaradanlar və yaşadanlar" incəsənət proqramı tarixi mahnılarımızın keçmiş korifey ifaçılarının musiqi, ifaçılıq möcüzələrini ortaya qoymaqla, həmin sənətkarların müasir davamçılarını xalqa tanıtmaq missiyasını yerinə yetirir.

"Mədəniyyət" telekanalındakı "Görüş yeri" musiqi proqramı da təxminən eyni mahiyyət daşımaqdadır.

AzTV-də efirə çıxan "Bu axşam" proqramı ədəbiyyat, milli dəyərlər kimi ciddi məsələlərə həsr olunur. Həm də televiziya belə proqramlara tanınmış alimləri, ziyalıları dəvət etməklə tamaşaçının maariflənməsinə nail olur. Bu proqram növbəti buraxlışlarından birində (2 sentyabr 2017) akademik Teymur Kərimlini və akademik Nizami Cəfərovu ədəbiyyatımız və milli dəyərlərimiz ətrafında geniş söhbətə dəvət etmişdir.

AzTV-nin "Azərbaycan muzeyləri" incəsənət proqramının bütün verlişlərində muzeylərimizin tematikası, burada qorunan xalq sənət nümunələri barədə tamaşaçıya geniş məlumat verilir. Proqramlardan birində Azərbaycanın füsunkar təbiətinin qoynunda yerləşən qədim "Qala Qoruğu" muzeyi, onun tarixi, milli ornament göstəricisi, içərisində tariximizi əks etdirən sənət nümunələri haqqında maraqlı məlumat əldə etmək mümkün oldu.

Beləliklə, müraciət etdiyimiz telekanallar və onların incəsənətə dair proqramlarına qısa bir baxış subut edir ki, Azərbaycanın teleefirində milli musiqimiz, xalq sənətinin çoxçeşidli numunələri xeyli dərəcədə tamaşaçıya təqdim olunmaqdadır. Və bu proqramlar televiziyanın əsas funksiyalarından biri olan maarifçilik missiyasını uğurla yerinə yetirməkdədir.

**Ədəbiyyat:**


1. Əlibəyli E. Televiziya nəzəriyyəsinin əsasları. Bakı: Elm, 2011, 412 s.
2. Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2006, 184 s.
3. Heydər Əliyev və mətbuat. 4 cilddə, I c., Bakı: Nurlar, 2003, 640 s.
4. Xəlilov S. Baxış bucağı. Bakı: Elm və Təhsil, 2010
5. Xəlilov S. Həyatın özü və görünən üzü: fəlsəfi və ədəbi-bədii publisistika. Bakı: Nurlar, 2013, 448 s.
6. Егоров В.В. Телевидение: Теория и практика. М., МНЭПУ, 1992, 312 с.
7. Советский энциклопедический словарь. М., Советская энциклопедия, 1987, 1600 с.
8. Телевизионная журналистика. 4-е издание / Под ред. Г.В.Кузнецова, В.Л.Цвик иА.Я.Юровского. М., Высшая школа, 2002, 304с.
9. Философский энциклопедический словарь. М., Советская энциклопедия, 1989, 816 с.



**Фахрия Исаева**


**Взгляд на телевизионные программы об искусстве в контексте развития национально-духовных ценностей**

**Резюме**


Данная статья посвящена содержанию телевизионных программ об искусстве в пространстве азербайджанского телевидения. Здесь прослеживаются исторические традиции и процессы развития современной модели телевидения. Автор, используя этот формат развития национального телевещания, выявляет и рассматривает проблемы через призму национальных ценностей. К тому же, в статье дается распределение телевизионных программ об искусстве по типологическим характерным особенностям. Научно-теоретическую важность поставленной цели выявляет то, что сама статья выстроена на основе тематического анализа. Подобные форматы телевизионных программ на пространстве азербайджанского телевещания являются целью исследования.



**Ключевые слова:** телевидение, искусство, национально-духовные ценности, формат.



**Fakhriya Isaeva**


**A look at television programs about art in the context of the development of national and spiritual values**

**Summary**


This article is devoted to the content of television programs about art in the space of Azerbaijani television. Historical traditions and processes of development of the modern model of television are traced here. The author, using this format of the national television broadcasting development, identifies and considers problems through the prism of national values. In addition, the article gives the distribution of television programs about art based on typological characteristics. The scientific-theoretical importance of the stated goal is revealed by the fact that the article itself is based ona thematic analysis. Such formats of television programs on the space of Azerbaijani television are the goal of the research.



**Keywords:** television, art, national-spiritual values, format.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.10.2017Məqalənin çapa qəbul olunma tarixi: 15.11.2017**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Amin Novruzov ADMİU-nun ElmiŞurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**